# Ağdam bu dəfə də düşmən hücumuna layiqincə sinə gərdi

## Rayon sakinləri Ali Baş Komandanın "Hücum!" əmrini icra etməyə tam hazırdır





*...Çöl, çəmən zümrüd libasa bürünüb. Ana təbiət hər tərəfə yaşıl xalı sərib. Qarabağa yenə yaz gəlir. Hər gəlişi yeni olan bu yaz sevimli şairimiz Mikayıl Müşfiq demişkən, başqa bir yazdı, bu yaz daha da xoşdur... Bu yaz qələbə soraqlı könüllərin baharıdır, bu yaz doğrulan ümidlərin, çiçək açan arzuların baharıdır. Bu yaz heç zaman Qarabağ itkisi ilə barışmayan, vətənə sonsuz məhəbbətlə dolu ürəyi həmişə Qələbə eşqiylə çırpınan oğulların qisas baharı olacaqdır!*

Adı həmişə xəyanətlə qoşa çəkilən ermənilər adətlərinə xilaf çıxmayıb yeni bir təxribata imza atdılar. Aprelin 2-də gecə yarı bütün cəbhə boyunca ərazilərimizə artilleriya zərbələri endirən Ermənistan silahlı qüvvələri Azərbaycan ordusunun qüdrəti sayəsində anındaca layiqli cavabını aldı. Bunu gözləməyən düşmənin atəş nöqtələri sərrast atəşlər ilə darmadağın edildi. Ermənilər növbəti təxribatlarını həyata keçirmək üçün öz aləmlərində əlverişli məqam seçmişdilər. Düşünmüşdülər ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Amerika Birləşmiş Ştatlarında keçirilən nüvə təhlükəsizliyi sammitində iştirak etdiyi zamanda bütün cəbhəboyu hərbi əməliyyatları başlamaqla Azərbaycanda xaos yaradacaq, əhalini qorxuya salacaqlar. Amma böyük yanlışa yol vermişdilər. Unutmuşdular ki, Azərbaycan ordusu artıq dünənki ordu deyil! Azərbaycan ordusu artıq Qarabağı işğaldan azad etməyə qadirdir.

Bu gün ölkədə, xüsusilə Qarabağ bölgəsində, sözün həqiqi mənasında, yüksək əhvali-ruhiyyə, xoş ovqat yaşanır. Müəyyən itkilərimizə, şəhidlər verməyimizə baxmayaraq, bizim üçün uğurlu nəticə, düşmənə vurulan sarsıdıcı zərbə hər evdə, hər ailədə əsl bayram təəssüratı yaradıb. Bəli, bu müharibədir! Müharibə isə qansız-qadasız olmur. Bu savaşda biz haqlıyıq. Uğrunda döyüşlər gedən, qanlar tökülən, qurbanlar verilən Qarabağın əzəli Azərbaycan torpaqları olduğunu Prezident İlham Əliyevin müdrik siyasəti, uğurlu diplomatiyası sayəsində artıq bütün dünyaya qəbul etdirib! Beynəlxalq təzyiqlərə tab gətirə bilməyən, iqtisadi gücü, hərbi qüdrəti sürətlə artan rəqibinin qarşısında dayana bilməyəcəyini dərk edən, onlar üçün ağır olsa da, işğal etdikləri ərazilərdən çəkilməkdən başqa yolun qalmadığını anlayan Ermənistanın hərəkətləri oyun qaydalarına əməl etməyən uşağın cığallığına bənzəyir. Bunun cəzası isə ya ciddi qulaq burması, ya da tərs bir şapalaq olur! Necə ki, indi Ermənistan bu acı aqibətlə üzləşir!

Atəşkəs rejimi dövründə Ermənistan silahlı qüvvələri hər gün atəşkəsi pozub, əsgərlərimizin, mülki əhalinin ölümünə səbəb olub. Ağdamda 8 yaşlı Farizin erməni snayperi tərəfindən vurulması hər kəsin xatirindədir. Təsərrüfat işləri ilə məşğul olan dinc əhalinin erməni gülləsinə tuş gəlməsinə dair onlarla hadisəni xatırlamaq olar. Dişi qana batmış quduz canavarlar törətdikləri son təxribatın da cavabsız qalacağını təxmin edirdilər. Amma yanıldılar. İstəsələr də, istəməsələr də ciddi səhvə yol verdiklərinin fərqində olmalıdırlar. Bütün atəşkəs dövründə bu qədər itkiyə məruz qalmayan Ermənistan indi yas içindədir. Azərbaycanda isə bayram əhvali-ruhiyyəsi, qələbə havası duyulur.

Ağdam son günlər intensivləşən döyüşlərin qaynar nöqtələrindəndir. Düşmənlə təmas xətti boyunca yerləşən yaşayış məntəqələrində təbii gərginlik olsa da, həyat öz axarı ilə davam edir. Ali Baş Komandanın hünərinə, qətiyyətinə arxalanan, Azərbaycan əsgərinin şücaətinə güvənən rayon sakinlərinin əli təsərrüfat işlərindən soyumayıb. Kimi taxıl zəmilərini suvarır, kimi də tərəvəz əkinlərinə qulluq edir. Rayonun təsərrüfatlarında yaz-tarla işləri nəzərdə tutulan qaydada davam etdirilir. Düşmənlə üzbəüz mövqedə yerləşən Təzəkənd kəndinin sakini Səfqulu Hüseynov bizimlə söhbətində deyir:

- Biz illərdi ki, güllə səslərinə adət etmişik. Amma dövlətimizin qüdrətinə, ordumuzun gücünə arxayın olduğumuz üçün düşmənlə bir güllə məsafəsində yerləşən kəndimizdə, ev-eşiyimizdə rahat yaşayırıq. İkimərtəbəli böyük evimiz var. Bu yaxınlarda xeyli xərc çəkib onu əsaslı şəkildə təmir etdirmişəm. Əminlik, arxayınlıq olmasa, təbii ki, bunu etmərəm. Ailəmin dolanışığı torpaqdan çıxır. 3 hektar soğan, 5 hektar şəkər çuğunduru, 4 hektar yonca əkmişik. 10 başdan çox mal-qara saxlayırıq. Ailəmizin "Jiquli" və "Prado" markalı iki minik maşını var. Fasiləsiz elektrik enerjisi, təbii qaz və su ilə təmin olunuruq. Yaşım 65-i haqlasa da, əlim işdən soyumayıb. Üç oğul atasıyam. Üçü də hərbi xidmətdə olub, vətənə borclarını ləyaqətlə ödəyib. Əgər müharibə yenidən başlasa, oğullarımla birlikdə mən özüm də silah götürüb döyüşlərə atılmağa hazıram. Son günlər şəhidi olduğumuz erməni təxribatı bizi qətiyyən narahat etmir. Doğrudur, bizim kəndə də mərmilər atılıb. Güloğlan Abbasovun həyətinə düşən mərmi onun mülkünə xeyli ziyan vurub. Allaha şükür ki, kəndimizdə insan tələfatı yoxdur. Olsa belə, ona hazırıq. Unuda bilmərik ki, düşmən bizimlə müharibə aparır. Müharibədə ölüm-itim, qan-qada olması isə təbiidir. Atılan top mərmiləri, güllə səsləri müəyyən narahatlıq yaratsa da, ordumuzun uğurları bizi sevindirir, hər kəsə ruh verir. Biz nə zamandır ki, düşməndən qisas alacağımız məqamı gözləyirik. Artıq bu an gəlib çatıb. Qarabağa doğru atılan hər addımı böyük qələbənin başlanğıcı hesab edirik. Biz ordumuzla bir yerdəyik. Onun hər zəfərinə alqış deyirik. İnanırıq ki, Ali Baş Komandan İlham Əliyev müdrik siyasəti ilə bizi arzusunda olduğumuz zəfərə qovuşduracaq.

Aldığı zərbələrin təsirindən sarsılan düşmən təxribatını davam etdirir. Rayonun düşmənlə təmas xətti boyunca yaşayış məntəqələri davamlı olaraq artilleriya atəşinə tutulur. Qaradağlı, Çəmənli, Orta Qərvənd, Təzəkənd, Əfətli kəndləri, Bənövşələr, Birinci və İkinci Dördyol köçkün qəsəbələri atəşə daha çox məruz qalan yaşayış məntəqələrindəndir. Top mərmiləri Sarıcalı kənd tam orta məktəbini, həmin kəndin sakini İlqar Lələyevə, Çəmənli kənd sakinləri Şakir İbadova, İradə İsmayılovaya, Hacıməmmədli kənd sakini Rafiq Quliyevə, Birinci Dördyol köçkün qəsəbəsində Şəfa Əliyevə məxsus yaşayış evlərini, bir çox yardımçı tikililəri yararsız hala salmışdır. Dəyən ziyanı aradan qaldırmaq üçün dövlət səviyyəsində operativ tədbirlər görülməsinə başlanmışdır.

Düşmənin atdığı mərmilərdən biri Bənövşələr qəsəbəsinin sakini Şirazi Naibovun həyətinə düşmüş, nəticədə 45 baş qoyun tələf olmuşdur. Dəyən ziyanın qarşılığında Şirazinin söylədiyi fikir maraqlıdır:

- Ordumuzun qazandığı zəfər, düşmənə vurduğu zərbə məni o dərəcədə sevindirir ki, mal-qoyun tələfatı gözümdə deyil. Malım-dövlətim, üstəlik canım da vətənə, Azərbaycan əsgərinə qurban! Bizim arzumuz, istəyimiz başqadır. Doğma yurd yerlərinə, isti yuvamıza dönmək üçün hər şeydən keçməyə hazıram! Tək mən yox, bütün Ağdam camaatı çox istəyir ki, ordumuzun zəfərləri davamlı olsun, düşmən Qarabağdan tamamilə qovulsun! Bu, şirin bir arzu deyil! Hər bir ağdamlı əsgərlərlə bir sırada döyüşməyə, düşməndən layiqli qisas almaq üçün səngərə atılmağa hazırdır. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi siyasət, qətiyyətli və prinsipial mövqe ürəyimizcədir. Biz dövlət başçısına inanırıq. İnanırıq ki, doğma Qarabağımız onun yeritdiyi müdrik siyasət sayəsində tezliklə işğaldan azad olunacaqdır.

Qarabağ savaşında ən çox şəhid verən Ağdam olduğundan bu gün nigaran baxışların dikildiyi bir nöqtədir. Kənardan duyulan bu nigaranlıq baş verən hadisələrə dərindən müdaxilə edəndə, ayrı-ayrı rayon sakinləri ilə həmsöhbət olub, onların nə düşündüklərini paylaşanda yavaş-yavaş əriyib yox olur, yerini milli həmrəyliyə, qələbəyə, yenilməz inama verir.

Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatda şəhid olan əsgər Sərvan Mehrəliyevin dəfnində şahidi olduğumuz ab-hava yuxarıda dediyimiz fikirlərlə tam üst-üstə düşür. Mərasim iştirakçılarının gözlərində yaş görünmürdü, əvəzində baxışlarından qəzəb süzülürdü. Dəfn mərasimində iştirak edən Milli Məclisin deputatı Elman Məmmədov hər kəsin ürəyindən keçənləri dilə gətirdi:

- Rahat uyu, əziz övlad! Uğrunda canından keçdiyin Qarabağın azad olunması prosesi artıq başlayıb. Sənin əsgər dostların düşmənə layiqli cavab verib geri otuzdururlar. Biz addım-addım irəliləyirik! Sizlərin əziz və müqəddəs şəhid adı xalqımızın yaddaşına əbədi həkk olub. Sizin ömrünüz müstəqil Azərbaycanın ömrü qədərdir.

Şəhidin atası Natiq kişi ağrı-acısını mərdi-mərdanə bölüşdü:

- Qarabağın azadlığını istəyiriksə, qurbanlara da hazır olmalıyıq. İndi ağlayıb-sızlamaq, göz yaşı axıtmaq vaxtı deyil! Düşməndən qisas almaq zamanıdır! Çox istəyirəm ki, indi başlanan döyüş əməliyyatları bütöv Qarabağın azad olunması ilə başa çatsın!

Amerika Birləşmiş Ştatlarına uğurla reallaşan səfərdən dönən Prezident İlham Əliyev dərhal Təhlükəsizlik Şurasının iclasını çağırdı. Yaranmış vəziyyəti siyasi uzaqgörənliklə təhlil edən Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətlə səsləndirdiyi fikirlər uşaqdan böyüyə, qadından kişiyə kimi ölkə ictimaiyyətinə xoş müjdələr bəxş etdi:

"Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu gün bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu.

Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda, daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm".

Bu, Ermənistan rəhbərliyinə, ermənilərin dünyadakı bütün havadarlarına göndərilən bir mesaj, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının etdiyi ciddi xəbərdarlıq idi. Bundan məntiqi nəticə çıxarmaq isə qarşı tərəfin vəzifəsidir. Son qərar ləngidikcə gözüyaşlı erməni analarının sayı çox sürətlə artacaqdır. Buna heç kəs şübhə etməsin! İndi sıra bizdədir. Bu anı, bu məqamı illərlə gözləmişik! Dul qalmış gəlinlərin saçları ağarınca gözləmişik! Şəhid analarının ağlamaqdan gözləri kor olunca gözləmişik! Şəhid övladları böyüyüb əsgər olunca, əli silah tutunca gözləmişik. Ata-babalarımız ürəklərində Qarabağ nisgili dünyadan köç edənədək gözləmişik. Bizi problemin sülh yolu ilə həllinə inandırmağa çalışan beynəlxalq təşkilatların fəaliyyətlərinin utopiyadan başqa bir şey olmadığını anlayınca gözləmişik. Dədə-baba torpaqları işğal edilən, doğma ev-eşikləri talan edilib viran qoyulan, zaman-zaman haqsızlıqlarla üzləşən bir millətin səbr kasası dolub daşınca gözləmişik. Səbr, təmkin, dözüm bu qədər yetməzmi?! Artıq səbr etməyə yer, dözməyə taqət qalmayıb! Dövlət başçısının müdrikliyinə inanan, milli ordusunun gücünə arxalanan bütöv bir xalq indi ayaqdadır. Qəzəblə sıxılmış yumruqların, intiqam həvəsiylə çırpınan ürəklərin, şimşək kimi çaxan odlu baxışların qarşısında dayanmaq indi çox mümkünsüzdür.

Azərbaycan Qələbəyə hazırdır!

Bunu Ağdamda indi daha aydın hiss etmək olar...

***Lazım QULİYEV,***
***"Azərbaycan"***